# İstedadı və bacarığı ilə seçilən yeniyetmə



Məhəmməd Muradov 2003-cü ildə Bakıda anadan olub. Bakı Modern Məktəbinin VI sinfində təhsil alır. Məktəbin ictimai işlərində daim fəallıq göstərir. 2012, 2013, 2014-cü illər Məhəmməd üçün uğurlu olub. O, Bakıda Ətraf Mühitin Mühafizəsi VI-VII Beynəlxalq Layihə Olimpiadasında ("İNEPO-AVRASİYA") fərqləndiyinə, həmçinin VIII İNEPO-AVRASİYA Beynəlxalq Layihə Olimpiadasında da ölkə tanıtım stendlərində fəal iştirakına görə sertifikatlara layiq görülüb. 2013-2014-cü tədris ilində keçirilən "Sürətli oxu" yarışında hədəfə çatdığı üçün fəxri fərmanla mükafatlandırılıb. Həmin il ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş rəsm və əl işi sərgisində fərqləndiyinə, ötən tədris ilində isə dərslərində fəallığına və nümunəvi davranışına görə fəxri fərmanlar qazanıb. İstedadlı yeniyetmə dərslərini yaxşı oxumaqla yanaşı, eyni zamanda idmanın cüdo, basketbol üzgüçülük növləri ilə də məşğul olur.

İstedad və bacarığı, çalışqanlığı ilə yaşıdlarından fərqlənən Məhəmməd həm də rəsm həvəskarıdır. Müraciət etdiyi mövzular rəngarəngliyinə görə bir-birindən fərqlənir və hamını heyran edir. Kağız üzərində sulu boya ilə çəkdiyi əlvan rəngli rəsmlər təbiət vurğunu olan yeniyetmənin böyük istedad sahibi olacağından xəbər verir.

20-yə yaxın rəsmi olan Məhəmməd fərdi sərgisinin keçirilməsi üçün səylə çalışır.